Ədalət 2019.- 17 aprel.- S.8.



*Əjdər QİYASLI*
*İqtisadçı alim,*
*şair*

# ULU TANRI YANINDA

*Məşhur oftalmoloq*
*"Göz dünyası"nın böyük loğmanı*
*Hüseynov Xəlil həkimə ithaf edirəm*

Ümid çırağı yanır,
Ömrün "Göz dünyası"nda.
Sevinc ərşə dayanır,
Gözəllik aynasında.

Allah səni səmadan,
Gözlərə nur göndərib.
Bir nurani anadan,
Böyük qürur göndərib.

Neçə-neçə xəstənin,
Çarəsini bilirsən.
Qismətindir bu sənin:
Səmaya yüksəlirsən.

Bağın barın dərəndə,
Bağa yaraşıq gəlir.
Gözlərə nur verəndə,
Gözünə işıq gəlir.

Fikir ver yaraşığa:
Daş da çiçək bitirir.
Həsrət qalan işığa,
Sənə pənah gətirir.

Yanım çoxdu canında,
Nur yaraşır üzünə.
100 yaşlı qocanın da,
İşıq oldun gözünə.

Ağac əkən dərər bar,
Yanım olsa canında.
Böyük şərafətin var,
Ulu Tanrı yanında.